http://doi.org/10.58225/sw.2024.2-37-41

QARA RƏNGİN İŞIĞI TANINMIŞ QRAFİKA USTASI ƏDALƏT HƏSƏNOVUN YARADICILIQ PORTRETİ

Səmədov Ceyhun Yaşar oğlu– s.ü.f.d., Təsviri incəsənət kafedrası, AzMİU,
jeyhun.samadov@azmiu.edu.az

Annotasiya. Məqalədə Ulduz jurnalının bədii rəssamı Ədalət Həsənovun qrafika sənətindən bəhs edilir. Rəssam qrafikanın janr və texniklarından əsasən kitab və jurnal qrafikasına daha çox üstünlük verirdi. Əsas fəaliyyəti 1967-ci ildən nəşr olunmağa başlayan "Ulduz jurnalının bədii tərtibatı idi. Müasir dövrümüzdə kompyuter proqramlarının hesabına kitab və jurnalların bədii tərtibatı üçün geniş imkanlar mövcuddur. Lakin o dövrdə bu kimi imkanlar olmadığından əsas iş bədii rəssamın üzərinə düşürdü. Azərbaycan yazıçıları və şairlərinin əsərlərinə çəkdiyi rəsmlər və həmin əsərlərin məzmununu ifadə etmək cəhdi onların təbliğindədə müəyyən rolunu oynayırdı. Qrafik əsərlərin Respublika və beynəlxalq rəsm sərgilərində nümayişi bu təbliğatı dahada gücləndirirdi.
Açar sözlər: rəssam, qrafika, "Ulduz" jurnalı, bədii tərtibat, sərgi

BLACK LIGHT CREATIVE PORTRAIT OF WELL-KNOWN GRAPHIC MASTER ADLAT HASANOV

Samadov Jeyhun Yashar– PhD in art studies., department of Fine Arts, AzUAC,
jeyhun.samadov@azmiu.edu.az

Abstract. The article talks about the graphic art of Ulduz magazine artist Adalat Hasanov. The artist mainly preferred book and magazine graphics to the genres and techniques of graphics. his main activity was the artistic design of "Ulduz" magazine, which was published in 1967. In our modern era, there are wide opportunities for artistic design of books and magazines due to computer programs. However, since there were no such opportunities at that time, the main work fell on the artist. The paintings he drew on the works of Azerbaijani writers and poets and the attempt to express the content of those works played a certain role in their promotion. The display of graphic works at national and international art exhibitions strengthened this propaganda.
Keywords: artist, graphics, "Ulduz" magazine, artistic design, exhibition

Giriş. Azərbaycan qarafikasının ötən yüzilliyin ikinci yarısına, xüsusilə də onun son qərinəsinə təsadüf edən inkişafını səciyyələndirən xüsusiyyətlərdən biri də bu məkanda yer almış rəssamlar arasında rəqabətin duyulası dərəcədə gərginliyi olmuşdur. Bu qeyri-adi "yarışma"ya qoşulanların biri də məşhur "Əzimzadə məktəbi"nin 1960-cı il məzunu, uzun illər məşhur "Ulduz" jurnalında bədii rəssam kimi uğurlu fəaliyyət göstərmiş Ədalət Həsənov (1936) idi...

Həmin illərin bədii mənzərəsini göz önündə canlandırmalı olsaq, onda baş tutan bu "yarışma"nın həm də milli qrafika sənətinin inkişafına xidmət etdiyini deməliyik. İştirakçıların sırasında bir tərəfdən Ələkbər Rzaquliyev, Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, Elmira Şahtaxtinskaya və Yusif Hüseynovun, digər tərəfdən Altay Hacıyev, Cəmil Müfidzadə, Rafiq Mehdiyev, Elçin Aslanov və Nazim Babayev kimi görkəmli sənətkarların olması da dediklərimizi təsdiqləyir. Ona görə də o vaxtlar bu rəqabətə qoşulmaq daha gənc qrafiklərdən orijinallıqla bərabər, həm də cəsarət tələb edirdi. Qənaətimizcə, az sonra təsviri sənətimizin ənənəvi bədii ruhunu daşımaq missiyasını müəyyən dərəcədə yerinə yetirməyə qadir olduqlarını sübut edəcək Arif Hüseynov, Adil Rüstəmov, Arif Ələsgərov və başqalarının yanında Ədalət Həsənovun mövcudluğu təbii qəbul olunurdu. Lakin, rəssam öz yaradıcı "mən"ini qrafikanın daha məşhur olan janr və texnikalarında yox, əsasən kitab-jurnal qrafikasında nümayiş etdirməkdə idi [1].

1967-ci ilin yanvar ayında "Ulduz" jurnalının ilk nömrəsi nəşr edilmişdir. İlk 6 sayı "Redaksiya heyəti" adı altında nəşr olunsa da, dəqiqləşdirilmiş məlumata əsasən, jurnalı çapa yazıçı-publisist, nəşrin məsul katibi Əməkdar incəsənət xadimi Yasif Nəsirli imzalamışdır. Sonrakı illərdə "Ulduz" jurnalına Xalq şairi Cabir Novruz (1967-1972), ədəbiyyatşünas, filologiya elmləri doktoru Akif Hüseynov (1972-1973), Dövlət mükafatı laureatı Əhməd Cəmil (1973-1976), Xalq yazıçısı Yusif Səmədoğlu (1976-1986), Əməkdar mədəniyyət işçisi Abbas Abdulla (1986-1993), Əməkdar incəsənət xadimi Ələkbər Salahzadə (1993-2004), Əməkdar incəsənət xadim Elçin Hüseynbəyli (2004-2014) Baş redaktorluq etmişlər. Kiril əlifbası ilə nəşrə başlayan "Ulduz" müstəqillik illərindən sonra latın əlifbası ilə nəşrini davam etdirmişdir. Jurnalın tirajı müxtəlif səbəblərə görə, daha çox isə maliyyə probleminə görə sabit olmamışdır. İlk sayı 15 min tirajla çıxan jurnal 1970-ci illərdə 40-50 min, 1988-ci ildə bəzən 70 minə yaxın nüsxə ilə çap olunmuşdur [2].

"Ulduz" jurnalı Azərbaycan və dünya ədəbiyyatının ən dəyərli nümunələrinin təbliğində, sahəyə aid elmi-nəzəri problemlərin, cərəyan və təmayüllərin, bütövlükdə ədəbi-mədəni mühitin işıqlandırılmasında, milli-mənəvi dəyərlərin qorunması və zənginləşdirilməsində mühüm rol oynamışdır. Zamanına görə böyük tirajla nəşrə başlayan ilk gənclik jurnalı "Ulduz" bu mənada onun gənc rəssam Ədalət həsənov üçün özünüifadə meydanına çevrildi. Etiraf edək ki, gənc rəssamın jurnalın müxtəlif mövzulu mətnlərini müşayiət edən qrafik rəsmləri zamanına görə çox fərqli və özünəməxsus idi. Yaxşı və həm də təqdiredici haldır ki, Ədalət Həsənov bu danılmaz birinciliyi bu günə kimi də qoruyub saxlamaqdadır. Aşağıda "Ulduz"a bədii özünəməxsusluq bəxş edən bu qrafikanın estetik tutumunu şərtləndirən məziyyətlərindən danışacağıq...

Hazırda ömrünün səksən səksəninci ilini yaşayan rəssamın arxada qalan və bədii axtarışlarla zəngin olan yaradıcılığına nəzər salsaq, onun Salyandan başlanıb Bakıda daima yenilənməkdə davam edən bu yolun maraqlı məqamlarla zəngin olduğunu görə bilərik. Bunların ən maraqlısı yəqin ki, hələ rayonda yaşayıb, rəssam olmaq arzusu ilə yaşadığı illərdə Azərbaycanın adını eşidib üzünü görmədiyi tanınmış fırça ustaları ilə Bakıda görüşməsi və yaxından təmasda olması idi. O, mavi arzularla yaşadığı həmin vaxtlarda, "Əzimzadə məktəbi"ndə aldığı təhsildən sonra– sənətdə ilk addımlarını atdığı dövrdə həmin tanınmışların ona SSRİ Rəssamlar İttifaqına üzv qəbul olunmaq üçün zəmanət verəcəklərinə inanmazdı. Bu gün həmin saralmış arxiv vərəqlərindən Mikayıl Abdullayev, Rasim Babayev və Cəmil Müfidzadə kimi sənətkarların imzalarının "boylanması"nı həm də o vaxtlar hələ çox gənc olan Ədalət Həsənovun istedadına və yaradıcı potensialının nəhayətsizliyinə inamın göstəricisi saymaq olar.

"Ulduz"dakı fəaliyyəti ilə respublikanın ən məşhur şair və yazıçıları ilə dostluğa çevrilən tanışlığı da bu gün şirin xatirələrdə yaşanmaqdadır. Əlavə edək ki, gənc yaradıcının həmin söz xiridarları ilə bu sıx ünsiyyətinin kökündə ilk növbədə Ədalət Həsənovun onların əsərlərinə özünəməxsus - obrazlı bədii şərh verə bilməsi dururdu. Jurnal səhifələrində yer almış illüstrasiyaların vaxtaşırı müxtəlif miqyaslı sərgilərdə uğurlu nümayişi isə, onların müəllifi ilə yanaşı, həm də şair və yazıçıların təbliğində müstəsna rol oynamışdı.

Əsas hissə. Bu yerdə deyək ki, Ədalət Həsənovun 1981- ci ildə SSRİ Rəssamlar İttifaqına üzv qəbul olunmasında onun qrafikanın müxtəlif texnikalarında ərsəyə gətirdiyi lövhələrin böyük rolu olmuşdu. Bu mənada ilk olaraq rəssamın "Vətənin keşiyində" sərgisində (1973) nümayiş etdirdiyi və Azərbaycan poeziyasına həsr olunmuş yeddi lövhədən ibarət silsilənin adını çəkmək lazımdır. Qara tuşla çəkilmiş bu nümunələrdə yazıçı-şair fikirlərinin alt qatına nüfuz etməklə, ilk baxışda sadə görünən müxtəlif ovqatlı misralara düşündürücülük bəxş etmək istəyi daha qabarıq ifadə olunmuşdu.

Ədalət Həsənovun 1977 və 1978-ci illərdə ictimailəşdirdiyi digər qrafika nümunələrində də forma-biçim və rəng yığcamlığının tamaşaçını duyğulara bələmək gücü kifayət qədər hiss olunan idi. Onun xüsusilə Aşıq Ələsgər irsinə həsr etdiyi bir-neçə illüstrasiyada (1977) böyük saz-söz ustasının lirikaya bələnmiş poetik dünyasına cəlbediciliyi birmənalı olan "bədii güzgü" tutulmuşdu. Rəssamın linoqravür texnikasında yerinə yetirdiyi "Torpağın ritmi" (1977) və "Səmaya yol" (1978) lövhələrində isə ağ-qara cizgilərlə əldə olunmuş cismaniliyin zəngin estetik tutum bəxş etdiyini deməliyik...

Onun jurnal qrafikasının məziyyətlərindən söz açmazdan əvvəl deməliyik ki, Ədalət Həsənov bütünlükdə "Ulduz"un bədii tərtibatının cavabdehi kimi 1967-ci ildən bu günə kimi həm də Azərbaycan rəssamlarının müxtəlif nəsillərini davamlı olaraq təbliğini həyata keçirməkdədir. Etiraf edək ki, nəşrin müxtəlif saylarında həmin rəssamlar haqqında verilən qısa məlumat və onların əsərlərinin jurnal boyu yerləşdirilmiş reproduksiyaları onun ümumi tutumuna qeyri-adi gözəllik bəxş edirdi. Belə təqdimatların daha çox gənc rəssamlarla bağlılığının məqsədli olduğunu vurğulamaqla, onların həmin yaradıcıların ictimaiyyət arasında tanınmasında ölçüyəgəlməz rolu olduğunu qeyd etmək lazımdır.

Şəkil 1. Şəhidlərin xatirəsinə [2]

Ədalət Həsənovun kitab- jurnal qrafikasını xronoloji ardıcıllıqla dəyərləndirməli olsaq, onda ilk olaraq "Ulduz"un 1967-ci illərdə işıq üzü görmüş saylarını vərəqləməliyik. Belə ki, məhz həmin illərdə Azərbaycan oxucusu ilk dəfə ədəbi mətnə əvvəlkilərdən fərqli rəssam müdaxiləsinə şahidlik etmiş oldu. Doğrudan da gənc rəssamın Cəlil Məmmədquluzadə obrazı ilə yanaşı, Xalidə Hasilova, Nemət, Nurəddin Mirzəyev və Həmid Arzulunun hekayələrinə, Rəfiq Zəka, Məmməd Aslan, Abbas Abdulla və Hüseyn Razinin şeirlərinə bədii yanaşmasında qrafik ifadə vasitələrinin təzad yaratmaq gücündən bacarıqla istifadə olunmuş, cizgilərdə ifadə olunmuş məna-məzmun yükü düşündürücülüyə bələnmişdi.



Şəkil 2. Həyat naminə [2]

Jurnalın bir il sonra işıq üzü görən saylarında yer almış qrafik nümunələrdə artıq təsvirlərin estetik tutumu yeni keyfiyyətlərlə zənginləşmişdi. Heç şübhəsiz, bunu şərtləndirən başlıca səbəb rəssamın əvvəlkilərdən fərqli ədəbi simalarla qarşılaşması olmuşdu. Doğrudan da rəssamın Cəfər Cabbarlı, Süleyman Rəhimov, Məmməd Rahim, Cabir Novruz, Tofiq Bayram, Musa Yaqub, Məmməd İsmayıl, Elçin və digər neçə-neçə istedadlı söz xiridarının bəşəri dəyərlərlə zəngin irsi ilə tanışlığı onun milli kitab qrafikasının estetikasına yeni və özünəməxsus cizgilər əlavə etməyə imkan verdi [4].

Rəssam sonrakı illərdə də onun fərdi yaradıcılıq potensialının tətbiqinə imkan verən yazıçı və şairlərin əsərlərinə illüstrasiyalar çəkdi. Bu mənada İmadəddin Nəsimi, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Fikrət Sadıq, Sabir Azəri, Fikrət Qoca, Bayram Bayramov. Əli Vəliyev, Vaqif Cəbrayılzadə, Nüsrət Kəsəmənli, Fərman Kərimzadə, Hikmət Ziya, Məmməd Araz, Siyavuş Sərxanlı, Mövlud Süleymanlı, Əliağa Kürçaylı, Xəlil Rza və s. adlarını çəkmək olar. Bu siyahıya Vasili Şukşin, Fazu Əliyeva, Rəsul Həmzətov. Boris Oleynik, Qabdulla Tukay, Xose Risal, Suqoro Yamomoto, Jorj Simenon və digər məşhur xarici ölkə ədəbi simalarının adlarını da əlavə etsək, onda əslində həm də rəssam üçün geniş seçim yaradan bu yaradıcıların ədəbi irsinin onun üçün nəhayətsiz ilham qaynağına çevrildiyini deməliyik.



Şəkil 3. "Ulduz" jurnalında yazıçı və şairlərin əsərlərinə çəkilmiş illustrasiyalar [4]

Ədalət Həsənovun yarım əsri əhatə edən qrafik irsində yer almış bəzi nümunələrin məziyyətlərini incələməli olsaq, onda onun ağ-qara təsvirlərdən "boylanan" estetikasında başqa müəlliflərdə müşahidə olunmayan cizgi "oyununu" görmək mümkündür. Bu oynaqlıq həm də duyulası cizgi ekspressiyası ilə ifadə olunduğundan cəlbedici olduğu qədər də, düşündürücü, sənətkarlıq baxımından isə heyranedicidir.

Ədalət Həsənov qrafikası ilk növbədə milli ənənələrə tapınmağına, mövcud olan "izm"lərə yaradıcı təfsirinə görə diqqətçəkəndir. Başqa sözlə desək, kompozsiyaların yaranma prinsipində miniatür üslubu əsas yer tutduğundan, çox vaxt jurnal səhifəsinin quruluşundan qaynaqlanan formatlar da kifayət qədər dəyişkən və məntiqlidirlər. Qeyd etmək lazımdır ki, rəssamın təsvir səthindən ustalıqla istifadəsinin nəticəsidir ki, bəyaz yerlikdə verilmiş görüntülərdə siluetlərin ifadəliliyi və cizgi zənginliyi ilə əldə olunmuş təzadlar ədəbi mətndə hifz olunan məna-məzmun yükün daşıyıcısı kimi həsədaparıcı görünürlər. Aşıq Ələsgərin şeirlərinə, Fərman Kərimzadənin "Qarlı aşırım", Sabir Azərinin "Qaragöz" və "Təbriz bənövşəsi", Fərman Eyvazlının "Göyəzən şimşəyi" və Fikrət Qocanın "Mavi dünyanın adamları" əsərlərinə göstərilən Ədalət Həsənov

münasibətində ədəbi mətnin şərti-obrazlı təqdimatına üstünlük verildiyindən, bədii cəhətdən kifayət qədər fərqli olan bu illüstrasiyalarda tamaşaçı ilə dialoq yaratmaq istəyi duyulmaqdadır...

Nəticə. Sonda qocaman qrafika ustasının yaradıcılığının "tanınma nişanı"na çevrilmiş bir önəmli xüsusiyyəti də vurğulamaq istərdik. Bu da onun zənginliyi danılmaz olan bədii irsindəki əsərlərin ifadə təravətini qoruyub saxlaması, bu günə kimi bədii axtarışlara köklənməklə yenilənməsi ilə bağlıdır. Etiraf edək ki, bütünlükdə yaradıcılıqda, o cümlədən də rəssamlıqda həmin təzahürün qorunub saxlanması çox çətin məsələdir. Qənaətimizcə, bunu Ədalət Həsənova yönəlik dəyərləndirməli olsaq, onda bunun kökündə ilk növbədə rəssamın gördüklərindən heyrətlənmək bacarığı, düşündüklərini cəsarətlə ifadə etmək istəyi durmaqdadır. Odur ki, onun qara rəngin işığına bələnmiş belə əsərlərinin zamansızlığa qovuşmaları isə birmənalıdır...

Ədəbiyyat

1. Tahirli A. (2013). Altmışıncılar: Ədalət Həsənov: Mənim tanıdığım rəssam və qrafik Ədalət Həsənov. Bakı, s 132
2. Tahirli A. (2022). Ulduzlar: parlayan, sayrışan və ...sönənlər. "Ulduz" jurnalının 55 yaşına. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Bakı. elektron resurs: https://literature.az/?page=118090&newsId=118090&lang=aze
3. Vahid T. (2013). Ədalətli rəssam– Ədalət Həsənov-85. elektron resurs: http://ek.anl.az/search/query?match_1=PHRASE&field_1=title&term_1=2013.-+13+iyul. +S.+15.&theme=e-kataloq
4. Yusifli V. (2023). Əlli beş il bundan qabaq..., Ədəbiyyat və incəsənət . 20.02.2023/elektronresurs:https://edebiyyatveincesenet.az/index.php/en/edebiyyat/item/6511-aelli-besh-il-bundan-aevvael-vazhif-yusifli-yaz-r

References

1. Tahirli A. (2013). Sixties: Adalat Hasanov: I know the artist and graphic artist Adalat Hasanov. Baku, p. 132
2. Tahirli A. (2022). Stars: shining, twinkling and...fading. To the 55th anniversary of "Ulduz" magazine. Azerbaijan National Academy of Sciences Institute of Literature named after Nizami Ganjavi. Baku. electronic resource: https://literature.az/?page=118090&newsId=118090&lang=aze
3. Vahid T. (2013). Fair artist- Adalat Hasanov-85. electronic resource: http://ek.anl.az/search/query?match_1=PHRASE&field_1=title&term_1=2013.-+13+July. +S.+15.&theme=e-catalogue
4. Yusifli V. (2023). Fifty-five years ago..., Literature and art. 20.02.2023/elektronresurs:https://edebiyyatveincesenet.az/index.php/en/edebiyyat/item/6511-aelli-besh-il-bundan-aevvael-vazhif-yusifli-yaz-r

Məqaləyə istinad: Səmədov C.Y. Qara rəngin işığı tanınmış qrafika ustası Ədalət Həsənovun yaradıcılıq portreti. Elmi Əsərlər/Scientific works, AzMİU, s. 37- 41, N2, 2024
For citation: Samadov J.Y. Black light creative portrait of well-known graphic master Adalat Hasanov. Elmi Əsərlər/Scientific works, AzUAC. p.37- 41, N2, 2024

Redaksiyaya daxil olma/Received 15.02.2024
Çapa qəbul olunma/Accepted for publication 17.04.2024